# Bir gün kəsər səsini göz yaşı yağışların



Mücirəddin Mübariz özü də göndərsə, şeirləri məmnuniyyətlə qəzet və jurnallarda, ədəbi portallarda mütəmadi dərc olunar. Göndərsə də... Bir az buna xəsislik edir. Beləsinin əvəzindən vasitəçilik missiyasını yerinə yetirmək də zövq verir adama. Şeirləri kimi:

**Dərk edə bilirik həyatı, bəli,**
**Hər kəmi- kəsiri kəsir ağlımız.**
**Yanan köksümüzün üşüyən əli,**
**Əlləri əlcəkli uşaqlığımız.**

Ömür təkcə "əlləri əlcəkli uşaqlıq illəri"ndən ibarət deyil ki... Hələ bundan sonra düşünəcəklərin, düşündüklərini ədəbi düşüncələrə çevirəcəklərin var."Daha bu darıxmağı nə oynadar yerindən" - deyə səssiz haray çəkəcəklərin var:

**Mənim ocaq nəğməli könlümün zümzüməsi,**
**Bir bəxt daşıyıram ki, küləyi gendən əsən.**
**Duysa daşlar əriyər inildəyən bu səsi,**
**Körpə əli deyil ki, ağrısından öpəsən.**

Ədəbi cameədən xeyli uzaq, ədəbiyyata bu qədər yaxın (bir gün kəsər səsini göz yaşı yağışların, -deyə biləcək qədər) olan Mücirəddinin hərdən sosial şəbəkələrə sərf etdiyi enerjiyə heyifim gəlir. Əslində sosial şəbəkənin yaşamımızın bir hissəsinə çevrildiyinin fərqindəyəm. Elə ona görə deyirəm (daha doğrusu belə istəyirəm) ki, bir çox sevdiyim müəlliflərin sosial şəbəkələrdə ancaq şeirlərini, hekayələrini oxumaq istəyirəm.

Oxuyun bu şeirləri. Mənim kimi bir daha sevəcəksiniz onun şair taleyini, onu bu taleyə gətirən şeirlərini...

**Vasif SÜLEYMAN**

***

**Mücirəddin MÜBARİZ**

Görsən məni xatırla
Qoyar yol ayrıcında bu vaxt, bu zaman bizi,
Bir gün kəsər səsini göz yaşı yağışların.
Qanadlarının altı gecələr ana dizi,
İşıq direklərində yuxulayan quşları—
Görsən məni xatırla.
Ocağı sönən hisslər qaynayır da, daşır da,
Qarışmaz təbəssümə ürəyinin göynəyi...
Xəyal baş alır görsə əlləri çamaşırda,
Zümzümə sədasıyla balaların köynəyin-
Sərsən məni xatırla.
Canın canı yansa da qəsdlər könüllərdədir,
Qurtarmadı nədənsə imdadım,dadım məni.
Ən uca abidələr, büstlər könüllərdədir,
Unutsun daş üstünə yazılan adım məni –
Bir sən məni xatırla...

***

Nə yaxşı sevdim səni
Köksümdə şirin ağrı nə şiddətlən ,nə də kəs,
Sənsizliyi danışır səssizlikdən gələn səs...
Ay könlümdə həsrəti ana qədər müqəddəs,
Nə yaxşı sevdim səni!
Yaslı ruhu sən toya, büsata qaytarmısan,
Duran vaxtı,zamanı saata qaytarmısan,
Ölən həyat eşqimi həyata qaytarmısan,
Nə yaxşı sevdim səni!
Ya yol, ya ömür bitə ,göz yoldan yığışardı,
Sənsiz heç bir gedişin yox xoş sonu, xoş ardı,
İçimdəki boşluğa bir dünya sığışardı,
Nə yaxşı sevdim səni!
Bir vaxtı mənimyidi o quş çalan qanadlar,
İndi isə varlığım yolundan çıxan qatar,
Hər canım acıdıqca dilimdə tək kəlmə var,
Nə yaxşı sevdim səni!
Xəyalınla doludur yaddaşımın hər qatı,
Ya zümzümən olaydım , ya sevdiyin bayatı.
Atsan götürməzdi it yaşadığım həyatı,
Nə yaxşı sevdim səni!
Səni elə sevmişəm
Könlümün uman yeri ayağının tapdağı,
Bu təklik şəhərində evim var,ünvanım yox.
Nə qaldıra bilirəm daş dolu yaşamağı,



Nə yolunda ölməyə bir məzarlıq canım yox.
Səni elə sevmişəm!
Dünyam oldu dünyada dünyalıqdan devrilən,
Sənsiz hər gün çıxmada ruh bədəndən tər kimi.
Səngərində ümidi qəlpələrə çevrilən,
Sonuncu mərmisinə sarılan əsgər kimi-
Səni elə sevmişəm!
Mən səni düşünəndə yas düşür, toy dağlışır,
Bir ürəyə qənimdir fəlakətlər beləcə.
Hisslərimin sadəlövh dalğaları qarışır,
Faciəvi röyadan ayılıram hər gecə-
Səni elə sevmişəm!
Aldığın nəfəsin də ağ yalana dönəndə,
Darıxmağın yerinə boğazını udarsan...
Axı gözəlləşəndi qadınlar sevilən də,
Görünsə sevgim gözə tanrını unudarsan-
Səni elə sevmişəm!

***

Günəşə qapı açmır pəncərəmin pərdəsi,
Kəsdin ümidlərimi məni zülmətdə qoydun.
İçimi silkələdi qəlbimin haray səsi,
İşıq direklərində donan quşlar da duydu.
Bir tək sən eşitmədin...
Bilsəm mənzilin hara,hardan gəlib keçirsən,
Dönəm bir qərib daşa yollarında don durub.
Mənimlə qəsdin nədir? Axı neyləmişəm nən?
Gözlərimin yaşını yanağımda dondurub-
Dağları üşütmədin!
Sənə dünya doğmadı, mənə köhnə bir tanış,
Arzuların qoynunda qəbirdə neçələri...
O qız xəyallarında arada yerdən danış,
Sən şəhərdə şah yolu ,mənsə kənd küçələri.
Mənimlə kəsişmədin...

***

Qoxla körpələrini ciyərinə yayılsın,
Huşsuz hissin ayılsın.
Gözlərində gülüşü cild - cild dərc elə,
Sat ağrını, xərc elə.
Pəncərən ağlayanda qoşulma buludlara,
Bax çırpınan quşlara.
Xəyalları səfərdə yağan yağışa baxma,
Axma, yollara axma.
Arzulara ayaq aç, diləklərin üstə get,
Sevinci təsəvvür et.
Saçını daramağa ayna gəzsin həvəsin,
Əllərin inciməsin.
Edam eyləyir məni könlündə düşən yasın,
Qaşların çatılmasın.
Səni xoşbəxt görəndə göyərir qara daşım,
Mənim gizli sirdaşım.
Bil, köksündə acılar bir gün tufan qoparsa,
Uçar nəyim vardısa...
Gülüşlərin dağların əridər qarın, qalmaz.
Sən güldüyün gündü yaz.
Ürəyini buz kimi, yuvanı isti saxla,
İsin evlə, otaqla.
Yad olma bu həyata alış, darıxmayasan,
Bilirəm, deyil asan-
Çalış darıxmayasan.
İllərin yorğunluğu gözlərində mürgülər,
Baxışın dərd sərgilər.
Tutub göyə çıxası içində yağan dolu,
Yanağın Araz qolu.
Günəş də qaşlarına yas saxlayır bəlkə də,
Dünya qalıb kölgədə.
Ürəyinin yanğısı ovucumu tərlədir,
Necə də qəribədir...
Əllərin toxunan gül çiçək açar fəsilsiz,
Barmaqların misilsiz.
Üzündə təbəssümü görmək arzum səfərbər,
Dodağın ümid kəsər.
Gülsən, zülmət otağa elə bil ki, gün düşər,
Könül açar gülüşlər.
Dəryalar xəfif mehdən dalğalanmaz , əzizim,
Sakitləş ay dənizim.
Misralar kəpənək tək işığına yığışar,
Düşüncələr dağlışar.
Salıb ömürdən belə illəri pərən-pərən,
Axtarma, yoxdur görən.
Bugünlər, gələcəklər zamanla vidalaşır,
Gün qaynayır, vaxt daşır.
Yorulub çiyinlərin dizlərinə düşməsin,
Yer göyə birləşməsin.